# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# QƏRAR

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 128 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 10 aprel tarixli 384-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 28 aprel tarixli 654 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 1 may tarixli 128 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 5, maddə 614 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 10 iyul tarixli 211 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında mədəniyyət sahəsində dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 4.1-ci bənddə və 6.1.3-cü yarımbənddə "mədəniyyət sənayesinin" sözləri "mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.
2. 6-cı hissənin adında və 6.1-ci bənddə "Mədəniyyət sənayesinin" sözləri "Mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.
3. 6.1.1-ci yarımbənddə "mədəniyyət, o cümlədən əyləncə sənayesinin" sözləri "mədəni və yaradıcı sənayenin" sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, " 9 " " sentyabr " 2026-cı il

№ 289